Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun
"Mobillik-5" qrant layihəsinin Yer elmləri üzrə qalibi,
AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun aparıcı elmi işçisi,
coğrafiya üzrə fəlsəfə doktoru Rövşən Kərimovun

# HESABATI

Mən, Rövşən Nəriman oğlu Kərimov Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun "Mobillik-5" qrant layihəsinin Yer elmləri üzrə qalibi qismində 23-25.10.2014 tarixlərində Avrasiya Biznes və İqtisad Cəmiyyətinin (Eurasia Business and Economics Society) İspaniyanın Barselona şəhərində keçirdiyi 14-cü beynəlxalq konfransında iştirak etmişəm.

Konfrans Barselonanın Silken Diagonal otelində təşkil olunmuşdur. EBES təşkilatının verdiyi məlumata əsasən, keçirilmiş tədbirdə dünyanın 61 ölkəsinin universitet və tədqiqat institutlarını təmsil edən 450-dən artıq alim və tədqiqatçı (o cümlədən ABŞ, Kanada, Qərbi və Şərqi Avropa, Yaxın Şərq ölkələri, Yaponiya, Çin, Koreya, İndoneziya, Pakistan, Avstraliya və s. ölkələrdən) konfransa qatılmışdılar. Konfransda azərbaycanlı tədqiqatçı kimi ölkəmizi mən təmsil edirdim.

Konfransın gündəliyinə uyğun olaraq, təqdim olunmuş məruzələrin xülasələri əsasında iştirakçılar əvvəlcədən sessiyalar üzrə qruplaşdırılmışdı. İştirakçılar ümumi sayı 40-a yaxın olan həmin sessiyalar üzrə ayrılmış müvafiq zal və otaqlarda məruzələri ilə çıxış etmişlər. Mənim iştirak etdiyim sessiya "Regional tədqiqatlar" adlanırdı. Konfransın keçirildiyi dil ingilis dili olmuşdur.

Konfransın birinci iş günündə, yəni oktyabrın 23-də "Azərbaycanın regionlarında qeyri-neft sektorunun inkişafı: meyllər və perspektivlər" adlı təqdimatla çıxış etmişəm. Çıxışımda "Azərbaycanda və onun regionlarında qeyri-neft sektorunun inkişafı üzrə müstəqillik illərində müşahidə olunmuş meylləri, son illərdə iqtisadi rayonlarda həyata keçirilmiş sosial-iqtisadi tədbirləri, iqtisadiyyatın qeyri-neft sektorunun ayrı-ayrı sahələrinin, o cümlədən qeyri-neft sənayesi, tikinti,

kənd təsərrüfatı, İKT və rabitə, nəqliyyat, turizmin inkişafını təhlil etmişəm. Çıxışım zamanı ölkənin qeyri-neft sektorunun inkişafına təsir göstərən faktorlar qeyd olunmuş, sahibkarlıq subyektlərinin fəaliyyəti ilə bağlı mövcud vəziyyət və tendensiyalar, investisiya mühiti, özəl sektorun qeyri-neft sektorunda dəyişən rolu və yeri göstərilmişdir. Çıxışımda 2004-2008 və 2009-2013-cü illər üzrə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları çərçivəsində görülmüş işlərin əhəmiyyəti xüsusi olaraq qeyd edilmişdir.

Təqdimatımda kəmiyyət göstəricilərinin dinamikası və nisbi dəyişməsi təhlil olunan dövrlər üzrə müqayisəli şəkildə verilmişdir. Belə ki, ölkənin ümumi və qeyri-neft ÜDM-lərinin artım templəri, neft və qeyri-neft sektorlarının ölkə ÜDM-ində xüsusi çəkisinin dəyişməsi, iqtisadiyyatın sahələri üzrə əsas kapitala investisiyalar, sənayedə və qeyri-neft sektorunda paytaxtdan kənar regionların payı, eləcə də ayrı-ayrı iqtisadi rayonların ümumi sənaye istehsalında, sənaye müəssisələrinin yerləşməsində, inşaat sektoruna investisiya qoyuluşunda, aqrar sektorda, əsas kənd təsərrüfatı məhsullarının istehsalında, otel və digər yerləşmə müəssisələrinin gəlirlərində payı göstərilmişdir. Azərbaycanda qeyri-neft sektorunun inkişaf istiqamətləri araşdırılmış, bununla əlaqədar dövlət siyasətinin prioritet fəaliyyətləri barədə konfrans iştirakçılarına məlumat verilmişdir. Qeyd olunan məsələlər üzrə gəldiyim nəticələr tövsiyə xarakterli məsələlər də daxil olmaqla təqdimatımın sonunda bəndlər üzrə göstərilmişdir.

Çıxışım müvafiq mövzu üzrə apardığım elmi tədqiqat üzərində qurulmuşdur. Tədqiqat işini 24 sayda elmi ədəbiyyat və məcmuə materialına istinad olunaraq aparmışam. Təqdimatımın hazırlanmasında tərəfimdən apardığım riyazi hesablamalardan və statistik məlumatlardan geniş istifadə etmişəm. Müvafiq məlumatların əyaniliyini artırmaq məqsədilə hazırladığım 12 qrafik və diaqram, 1 xəritə-sxem və 1 cədvəl, həmçinin çoxsaylı müşayiətedici fotomateriallar prezentasiyamda öz əksini tapmışdır. Təqdimat 20 dəqiqə müddətində çatdırılmışdır.

Çıxışım bitdikdən sonra dinləyicilər tərəfindən mövzu ilə bağlı mənə bir neçə sual verilmişdir. Polşadan olan D.Volşak, Y.Jialo, Latviyadan O.Sakalosa tərəfindən verilən sualları cavablandırdım.

Konfransın 2-ci və 3-cü günləri ərzində çıxışların dinlənilməsi davam etmişdir. Təqdimatların dinlənilməsində sonadək aktiv iştirak etdim. Konfransın gedişatı ərzində çıxışlarını bitirən tədqiqatçılara məni maraqlandıran suallarla müraciət edirdim.

Konfransın 3-cü günü EBES prezidenti C.Batten öz təqdimatı ilə çıxış etdi. Sonra konfransa qabaqcadan təqdim olunmuş 3 ən yaxşı prezentasiya və onların müəllifləri elan olundu.

EBES təşkilatının konfransda iştirak etdiyimi təsdiqləyən sertifikat verildi.

Konfransın fasilələrində, konfrans sonrası saatlarda müxtəlif ölkələrin nümayəndələri ilə söhbətlər edirdik. Bu söhbətlər zamanı Azərbaycan, burada həyata keçirilən sosial-iqtisadi tədbirlər, Qarabağ həqiqətləri, torpaqlarımızın işğal altında olması faktı barədə konfrans iştirakçılarına məlumat verirdim. Özümlə Bakıdan apardığım, akademik Cəlal Əliyevin və akademik Budaq Budaqovun həmmüəllif olduqları "Turks, Azerbaijanians, Armenians: Genoside of Historical truth" adlı kitabın nüsxələrini iştirakçılara paylaya bildim. Kitabda sovet hakimiyyəti illərindən bəri azərbaycanlılara qarşı yürüdülən ədalətsiz siyasət, Ermənistandan azərbaycanlıların qovulması, Qarabağın işğalı, Xocalı soyqırımı, azərbaycanlılara qarşı həyata keçirilmiş digər kütləvi qətllər barədə məlumatlar əks olunmuşdur. Çatdırdığım bu məlumatlar konfrans iştirakçılarında böyük maraq doğururdu.

Konfrans xarici ölkələrin alimləri ilə fikir mübadiləsi aparmaq, onlarla tanış olmaq və gələcəkdə elmi əlaqələr qurmaq baxımından da mənim üçün çox faydalı oldu.

Noyabr ayının 26-sı Barselonadan Bakıya döndüm.

İmza: [signature] Rövşən Kərimov

24.11.2014